

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

2 aprel 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 12 (3775)


# Diplomatik güc nümunəsi



## Azərbaycan qlobal proseslərdə söz sahibidir

**Azərbaycan həm milli maraqlarını qətiyyətlə müdafiə edir, həm də regionda sülhün və əməkdaşlığın təşviqinə mühüm töhfə verir.**

Bəşəriyyət son onilliklərin ən mürəkkəb mərhələlərindən birini yaşayır. Müxtəlif bölgələrdə alovlanan münaqişələr, böyük güclər arasında artan gərginlik qlobal təhlükəsizlik mühitini ciddi sınaq qarşısında qoyur. Belə bir mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın nümayiş etdirdiyi daxili sabitlik, təhlükəsizlik mühiti və balanslı xarici siyasət kursu beynəlxalq diqqəti cəlb edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş siyasət ölkəni qlobal proseslərdə söz sahibi olan etibarlı tərəfdaşa çevirib.

Bu gün beynəlxalq ictimaiyyət Azərbaycanı yalnız enerji resursları ilə zəngin ölkə kimi yox, regionda sabitliyin təminatçısı, əməkdaşlıq və dialoq məkanı kimi dəyərləndirir. Uzaqgörən siyasi kurs nəticəsində Azərbaycan etibarlı tərəfdaş, mövqeyi nəzərə alınan və təsir imkanlarına malik güc mərkəzi kimi tanınır.

Cənubi Qafqazda formalaşan yeni reallıq sülhə və qarşılıqlı hörmətə əsaslanır. İşğala son qoyulmasından sonra irəli sürülən sülh təşəbbüsləri həm region, həm də beynəlxalq səviyyədə yüksək qiymətləndirilir.

Hazırda Azərbaycan Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində bütün platformalarda konstruktiv mövqe nümayiş etdirir. Vaşinqtonda əldə edilən razılaşmalar sülh prosesinə yeni impuls verir. Bununla yanaşı, milli maraqların qorunması əsas prinsip olaraq qalır. Ərazi bütövlüyünü və suverenliyini təmin edən Azərbaycan bölgədə kənar müdaxilələrə imkan verməyən qətiyyətli mövqe sərgiləyir.

Ölkənin artan rolu iqtisadi və logistik imkanları ilə də bağlıdır. Azərbaycan bu gün enerji xəritəsinin yenidən formalaşmasında mühüm iştirakçıdır. Bir sıra Avropa ölkələrinə qaz ixracı, həmçinin beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi ölkəni mühüm logistika mərkəzinə çevirir.

Xarici siyasətdə humanitar dəyərləri də ön planda saxlayan Azərbaycan çətin vəziyyətlərdə müxtəlif ölkələrə yardım göstərməklə beynəlxalq həmrəyliyə töhfə verir. Ukrayna və İrana edilən yardımlar, qonşu dövlətlərlə qurulan humanitar əlaqələr bu siyasətin real təzahürüdür.

Bu gün Azərbaycanın qlobal arenada qazandığı diplomatik uğurlar illərdir yürüdülən səbirli, düşünülmüş və milli maraqlara söykənən siyasətin bəhrəsidir. Hazırda böyük dövlətlərin belə çətin sınaqlarla üzləşdiyi bir dövrdə Azərbaycanın sabitlik adasına çevrilməsi təsadüfi deyil. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu strategiya göstərir ki, güclü dövlət olmaq təkcə hərbi qüdrətlə deyil, həm də ağıllı tərəfdaşlıq qurmaqla, qonşularla mehriban münasibətləri qorumaqla və ehtiyacı olana humanitar yardım əli uzatmaqla mümkündür.

# Sosial rifah yüksəlir

## Bölgələrdə həyata keçirilən layihələr məşğulluğu da artırır

Azərbaycanın bölgələrində həyata keçirilən iri layihələr iqtisadiyyatın şaxələndirilməsi ilə yanaşı sosial rifahın yüksəlməsinə də ciddi təsir göstərir. Son günlər Prezident İlham Əliyevin iştirakı ilə açılışı baş tutan müəssisələr bu siyasətin ardıcıl xarakter daşıdığını bir daha nümayiş etdirdi. Şamaxıda yaradılan müasir aqrokompleks, yeni təhsil ocağı və Abşeron yarımadasında istifadəyə verilən enerji infrastrukturu ölkənin gələcək inkişaf trayektoriyasını müəyyən edən mühüm addımlar kimi diqqət çəkir.

Şamaxı rayonunda fəaliyyətə başlayan Şirvan Aqro heyvandarlıq kompleksi ən müasir texnologiyalar əsasında qurulub və artıq minlərlə baş heyvanın saxlanılmasına imkan yaradır. Süni intellektlə idarə olunan sistemlər, innovativ yem mərkəzi, reproduksiya texnologiyaları və müasir sağım avadanlıqları burada tətbiq olunan yüksək standartlardan xəbər verir. Bu kompleks yalnız kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq məqsədi daşımır. Eyni zamanda idxaldan asılılığın azaldılması, ixrac potensialının genişləndirilməsi və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində mühüm rol oynayır.

Müəssisənin fəaliyyətə başlaması ilə Şamaxı və ətraf rayonlarda iki yüzdən çox insan işlə təmin olunub.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Şamaxı Avropa liseyinin yeni binası müasir təhsil mühitinin formalaşdırılmasına xidmət edir. Köhnə və istifadəyə yararsız binanın əvəzinə yaradılan bu geniş kompleks yüzlərlə şagird üçün yüksək səviyyəli təhsil şəraiti yaradır. Laboratoriyalar, informatika və STEAM hərbi təlim, tibb və əmək otaqları, idman və akt zalları, kitabxana və digər infrastruktur elementləri gənc nəslin bilik və bacarıqlarının inkişafına geniş imkanlar açır.

"AzərEnerji" tərəfindən yaradılan Abşeron Batareya Enerji Saxlanc Mərkəzi isə ölkənin enerji sistemini daha dayanıqlı və çevik edir. Bu mərkəz artıq enerjinin toplanması və pik saatlarda istifadəyə verilməsi baxımından yeni imkanlar yaradır. Bərpaolunan enerji mənbələrinin artdığı bir dövrdə belə texnologiyaların tətbiqi həm ekoloji, həm də iqtisadi baxımdan böyük əhəmiyyət daşıyır.

Mərkəzin istifadəyə verilməsi ilə Azərbaycan regionda enerji innovasiyalarının tətbiqi sahəsində öncül mövqeyini daha da möhkəmləndirir. Bu layihə yalnız enerji təhlükəsizliyini təmin etmir, həm də gələcəkdə yaşıl enerjinin ixracı üçün geniş perspektivlər açır.

## Yeni təqaüd təsis olunub

### Prezident bununla bağlı Fərman imzalayıb

Prezident İlham Əliyev "Minatəmizləmə fəaliyyətini həyata keçirən zaman partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin ailə üzvlərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Fərman imzalayıb.

Fərmana əsasən, aylıq təqaüdün məbləği 700 manat müəyyən olunub.

## Anım paylaşımı

### Faciə qurbanları yad edilib

Prezident İlham Əliyev rəsmi sosial media hesablarında 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib. Dövlət başçısı bu faciəli tarixdə həyatını itirən soydaşlarımızın xatirəsini ehtiramla yad edib.

Birinci vitse-prezident Mehriban Əliyeva da sosial şəbəkə hesablarında paylaşım edərək soyqırımı qurbanlarının xatirəsinə dərin hörmətini ifadə edib, bütün şəhidlərə Allahdan rəhmət diləyib.

## Başsağlığı ziyarəti

### Dövlət başçısı səfirliyə gedib

Prezident İham Əliyev martın 27-də Gürcüstanın Azərbaycandakı səfirliyinə gedərək Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlyanın vəfatı ilə əlaqədar başsağlığı verib.

Dövlət başçısını səfir Zurab Pataradze qarşılayıb. Prezident matəm kitabına ürək sözlərini yazaraq mərhumun xatirəsinə ehtiramını bildirib.

Görüş zamanı Prezident İlham Əliyev Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlya həzrətlərinin həyatını və fəaliyyətini nəcib amallara və dinlərarası dialoqun təşviqinə həsr etdiyini deyərək, onun xatirəsinin ölkəmizdə daim ehtiramla xatırlanacağını vurğulayıb.

## Əməkhaqları artacaq

### Yeni vəzifə maaşları müəyyən edilib

Azərbaycanda bəzi dövlət orqanlarının rəhbər işçiləri üçün yeni vəzifə maaşları müəyyən edilib. Bununla bağlı Prezident İlham Əliyev Fərman imzalanıb.

Yeni qaydalara əsasən, Nazirlər Kabinetinin rəhbər heyəti, nazirlər, digər mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri və onların müavinləri üçün aylıq vəzifə maaşları beşinci ödəniş pilləsi üzrə yenilənib. Eyni zamanda, yerli icra hakimiyyəti başçıları üçün də yeni maaş məbləğləri təsdiqlənib.

Sənədə görə, fərman qüvvəyə minənədək rəhbər şəxslərə ödənilən əlavə, mükafat və başqa ödənişlər yeni müəyyən edilən aylıq vəzifə maaşının tərkibinə daxil ediləcək. Bu da əməkhaqqı sistemində vahid yanaşmanın təmin olunmasına xidmət edir.


Vətəndaş qəbulu keçirilib.....................2

Təhlükəsiz Azərbaycan........................2

Sabitlik adası.......................................3

Qanunları bil, gələcəyini qoru............4

# Respublika Xəbərləri

### Nazirlər telefon danışığı aparıb

Martın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı aparılıb. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, nazirlər Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin daha da irəlilədilməsi istiqamətində müsbət inkişafları məmnunluqla qeyd ediblər. Nazirlər həmçinin regional məsələləri və çoxtərəfli platformalar çərçivəsində fəaliyyətləri müzakirə ediblər.

### Elektron siqaretlər qadağan edildi

Aprelin 1-dən Azərbaycanda elektron siqaretlərin idxalı, satışı, istehsalı və istifadəsi qadağan olunub. Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi qanun dəyişikliklərində əksini tapıb. Qaydanı pozan fiziki şəxslər 350–500 manat, vəzifəli şəxslər 1650–2200 manat, hüquqi şəxslər isə 4000–5000 manat cərimə ediləcək. İctimai yerlərdə istifadə edənlərə isə 30 manat cərimə tətbiq olunacaq.

### Tələblər sərtləşib

Prezident İlham Əliyevin təsdiqlədiyi yeni qanunla sifarişli daşımalar üçün buraxılış vəsiqəsinin alınması qaydaları sərtləşdirilib. Yeniliklərə əsasən, daşıyıcılar sürücülərin narkoloji müayinəsi, xüsusi hazırlıq sənədləri və reysqabağı tibbi-texniki yoxlanış müqavilələrini təqdim etməlidirlər. Eyni zamanda, sərnişinlərin fərdi qəza sığortası və sürücülərin peşə sığortasının olması icbari tələbə çevrilib. Bu dəyişikliklər sərnişindaşımada təhlükəsizliyin təmin edilməsi məqsədilə tətbiq olunur.

### Növbəti köç karvanı Xocavəndə çatıb

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq həyata keçirilən "Böyük Qayıdış" proqramı çərçivəsində növbəti köç karvanı Xocavənd şəhərinə çatıb. Bu mərhələdə daha 64 ailə (253 nəfər) doğma yurduna qovuşub və sakinlərə yeni evlərinin açarları təqdim olunub. Bununla da Xocavəndə daimi məskunlaşan ailələrin ümumi sayı 201-ə (762 nəfər) çatıb. Qayıdan sakinlər həm yeni inşa edilən çoxmənzilli binalarda, həm də bərpa olunmuş fərdi evlərdə yerləşdiriliblər.

### Azərbaycan təxliyəyə kömək edir

İrandan fevralın 28-dən martın 30-dək Azərbaycana ümumilikdə 3 094 nəfər təxliyə olunub. Onlardan 536 nəfəri Azərbaycan vətəndaşıdır. Qalanlar isə Çindən 728, Rusiyadan 354, Banqladeşdən 198, Tacikistandan 187, Hindistandan 196, Pakistandan 148 və digər ölkələrdən də az sayda vətəndaşlardır.

### Beynəlxalq səyyahlar Qarabağda

Dünya səyyahlarının Qarabağ və Şərqi Zəngəzura növbəti səfəri baş tutub. Səyyahlar səfər çərçivəsində şəhər turları, yaradılan şərait və aparılan bərpa-quruculuq işləri ilə də tanış olublar. İki günlük səfərdə 37 ölkədən 79 nəfər iştirak edib. Bu, Qarabağ və Şərqi Zəngəzura təşkil olunan səfərlər arasında say baxımından ən böyük heyətdir.

### Yollarda yeni elektron tərəzilər olacaq

Aprelin 2-dən Azərbaycanda ümumi istifadədə olan avtomobil yollarında quraşdırılmış yeni elektron tərəzilər istismara veriləcək. Nəzarət sistemləri əsasən Bakı–Qazax–Gürcüstan dövlət sərhəddi (Ağstafa və Gəncə hissələri) və Mingəçevir–Bəhramtəpə yollarını əhatə edəcək. Sürücülərdən nəqliyyat vasitələrinin çəki, qabarit və ox yükü normalarına ciddi əməl etmələri tövsiyə olunur. Qaydaların pozulması inzibati məsuliyyətə səbəb olacaq.

### Məktəbəqədər təhsil yüksəlib

Azərbaycanda 5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb olunması son 5 ildə 25%-dən 92%-ə yüksəlib. Ölkəmizin məktəbəqədər təhsil üzrə nailiyyətləri UNESCO-nun nüfuzlu beynəlxalq hesabatında işıqlandırılıb.

### Balıq ovu mövsümü başa çatıb

Aprelin 1-dən Azərbaycanda daxili su hövzələrində sənaye məqsədilə balıq və digər su bioresurslarının ovu qadağan edilib. Qadağa Kür çayı, Sarısu gölü, Mingəçevir, Şəmkir, Araz və Yenikənd su anbarlarında sentyabrın 1-dək qüvvədə olacaq. Qaydanı pozan şəxslər qanunvericiliyə uyğun məsuliyyət daşıyacaq.

### Epidemioloji vəziyyət nəzarətdədir

AQTA-nın 2-6 mart tarixlərində ölkə üzrə keçirdiyi monitorinq nəticəsində quş qripi xəstəliyi aşkarlanmayıb. Müxtəlif ərazilərdə vəhşi və ev quşlarından götürülən nümunələrin laborator müayinələri zamanı həmçinin Nyukasl xəstəliyinə də rast gəlinməyib.

# Növbəti vətəndaş qəbulu və sıra baxışı keçirilib

## Cəlilabadda keçirilən qəbulda müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 31-də və aprelin 1-də Cəlilabad rayonunda növbəti vətəndaş qəbulu keçirib.**







Nazir əvvəlcə Cəlilabad rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib. Daha sonra Polis Şöbəsinin inzibati binasında Cəlilabad, Biləsuvar, Cəbrayıl, Salyan və Neftçala rayonları, eləcə də digər bölgələrdən qəbula gələn 356 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib. Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib. Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 258 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Təhlükəsiz Azərbaycan...

## Bayram ovqatı əmin-amanlıq şəraitində yaşandı






Novruz və Ramazan bayramları bu il də ölkəmizdə ictimai qayda və ictimai təhlükəsizliyin yüksək səviyyədə qorunması şəraitində qeyd olundu. İnsanların bayram ovqatı sabitliyin real təzahürü kimi özünü göstərdi.

Bayram günlərində gücləndirilmiş rejimdə xidmət aparan polis tərəfindən küçələrdə, parklarda və insanların sıx toplaşdığı məkanlarda təhlükəsizliyin təmin olunması üçün bütün zəruri tədbirlər həyata keçirilmişdi. Görülən işlərin nəticəsi olaraq vətəndaşlar bayramı rahat və təhlükəsiz şəraitdə qeyd edə bildilər.

Həmin ərəfədə paytaxtdan bölgələrə və əks istiqamətə səfərlərin çoxalması ilə hərəkət intensivliyinin artacağını nəzərə alan polisin sürücülərdən daha yüksək diqqət və məsuliyyət tələb edən çağırışları hərəkətin təhlükəsizliyinə nəzarət tədbirlərinin gücləndirilməsi ilə müşayiət olundu. Xüsusən hər bir sürücünün texniki cəhətdən saz nəqliyyat vasitəsi ilə yola çıxması, sürət həddinə riayət etməsi, düzgün manevr qaydaları və sükan arxasında ayıq olması kimi tələblər diqqətdə saxlanıldı. Bu profilaktik tədbirlər bayram günlərində ağır yol-nəqliyyat hadisələrinin qarşısının alınmasına əhəmiyyətli təsir etdi.

### Təhlükəsiz Qarabağda bayram sevinci artıq reallıqdır

Azad edilmiş torpaqlarda səslənən bayram nəğmələri, qalanan tonqallar, həmin torpaqlara qayıdan insanların sevinci artıq yeni dövrün reallığıdır. Burada xüsusi həssaslıq tələb edən təhlükəsizlik məsələləri polis əməkdaşları ilə Daxili Qoşunların koordinasiyalı fəaliyyəti ilə təmin olunur. Bu, nəticə etibarilə bayram günlərində azad edilmiş ərazilərə səfər edən vətəndaşların təhlükəsiz mühitdə hərəkətinə imkan yaratdı.

Qarabağa səfər edənlərin polisin əvvəlcədən elan etdiyi qaydalara riayət etməsinin də ümumi təhlükəsizliyə töhfə verdiyini qeyd etməliyik. Xüsusən qeydiyyat qaydalarına əməl olunması, marşrutlara uyğun hərəkət və müəyyən edilmiş qadağalara riayət edilməsi həmin ərazilərdə nizam-intizamın qorunmasında faydalı oldu.

Bayram günləri istirahət dövrü kimi qəbul olunsa da, daxili işlər orqanları üçün bu, daha intensiv fəaliyyət mərhələsi, gücləndirilmiş iş rejimi deməkdir.

### Cinayətkarlıqla mübarizədə fasilə yoxdur

Statistika da göstərir ki, həmin ərəfədə nəzarət zəifləməyib, əksinə daha sistemli xarakter alıb. On gün ərzində yüzlərlə cinayətin açılması, axtarışda olan şəxslərin saxlanılması, narkotik və silah faktlarının aşkarlanması təhlükəsizlik mexanizminin fasiləsiz işlədiyini bir daha təsdiq edir.

Məlumat üçün qeyd edək ki, martın 20-dən 29-dək ölkə ərazisində əvvəlki dövrlərdən bağlı qalan cinayətlərlə birlikdə ümumilikdə 346 cinayətin açılması təmin edilib, axtarışda olan 320 nəfərin saxlanılması həyata keçirilib. Onların yarısı borclu şəxs qismində axtarışda olub.

Eyni zamanda narkotiklərlə əlaqəli 89, qanunsuz saxlanılan silah-sursatla bağlı isə 122 fakt aşkarlanıb, cinayət törətməkdə şübhəli bilinən 314 nəfər saxlanılıb.

### Nəcib təşəbbüs

Təbii ki, bayram yalnız qayda və təhlükəsizliklə ölçülmür. Keçirilən bayramlar mənəvi dəyərləri də özündə qoruyub saxlayır. Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşlarının sığınacaqda uşaqlarla keçirilən görüşü, bayramlaşması da polisin qayğıkeş və həssas münasibətinin növbəti nümayişi oldu.

Görüş zamanı uşaqlar öz bacarıqlarını nümayiş etdirərək maraqlı proqram təqdim ediblər. Onların ifasında rəqslər göstərilib, yaradıcılıq qabiliyyətlərini əks etdirən əl işləri sərgilənib. Polis əməkdaşları da uşaqlarla səmimi söhbət aparıb, onlara xüsusi hazırlanmış hədiyyələr təqdim ediblər.

Vurğulanıb ki, bu cür təşəbbüslər uşaqların sosial inkişafına, özünəinamlarının artmasına və cəmiyyətlə daha sıx əlaqələr qurmasına ciddi təsir göstərir.

Beləliklə, növbəti dəfə sübut olundu ki, ictimai qaydanın və ictimai asayişin yüksək səviyyədə qorunması gərgin zəhmətin, sistemli yanaşmanın və vətəndaş məsuliyyətinin bəhrəsidir. Ölkədə mövcud olan etibarlı sabitlik qorunan dəyərdir. O, hər bir vətəndaşın davranışı ilə möhkəmlənən, hər bir əməkdaşın zəhməti ilə qorunan, hər gün aydın hiss olunan Azərbaycan reallığıdır.

*R.Mehtiyev*

# Sabitlik adası

## Azərbaycan beynəlxalq təhlükəsizlik reytinqində bir qədər də irəliləyib

**Azərbaycanın yerləşdiyi coğrafiya müxtəlif risklərin, ziddiyyətlərin və təhlükələrin kəsişdiyi mürəkkəb bir geosiyasi məkan kimi xarakterizə olunsa da, həyata keçirilən məqsədyönlü daxili və xarici siyasət nəticəsində ölkədə sabitlik, inkişaf və ictimai təhlükəsizlik mühiti formalaşıb və bu mühit ardıcıl şəkildə möhkəmləndirilib.**

Xüsusilə terrorçuluğa qarşı mübarizədə görülən sistemli və effektiv tədbirlər Azərbaycanın son illər beynəlxalq reytinqlərdə yüksək mövqelərə yüksəlməsini təmin edib və ölkəni qlobal miqyasda ən təhlükəsiz məkanlardan biri kimi tanıdıb.

Prezident İlham Əliyevin müəyyən etdiyi bu siyasətin mahiyyətində təhlükəsizlik və sabitlik əsas prioritet olaraq qalır, bütün digər inkişaf istiqamətləri məhz bu təməl üzərində qurulur. Belə bir strateji baxışın real nəticələri isə beynəlxalq hesabatlarda, xüsusilə terror təhlükəsi üzrə qiymətləndirmələrdə öz əksini tapır. Necə ki, “Global Terrorism Index 2026” (GTI) hesabatında bu il də Azərbaycan dünyanın ən təhlükəsiz ölkələri sırasında yer alıb.

Ötən ilin hesabatına əsasən terror təhlükəsi üzrə qeyd olunan sıralamada 90-cı reytinq mövqeyində olan Azərbaycan 2026-cı ildə üç pillə yüksələrək 93-cü yerdə qərarlaşıb, 1-dən 100-dək artan mümkün reytinq həddində dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi yüksək reytinqə sahiblənib.

Cənubi Qafqaz ölkələrindən Gürcüstan 77-ci, Ermənistan 81-ci yerdə qərarlaşıb.

Qeyd edək ki, "Global Terrorism Index" (GTI) reytinq sıralanması indeksləri terror hadisələri, ölümlər, ağır nəticələr, girovlar, terrorçuluqla mübarizə, terrorçuluğun araşdırılması effektivliyi və digər çoxsaylı göstəricilər üzrə hesablamalara əsaslanır.

İqtisadiyyat və Sülh İnstitutu (Institute for Economics and Peace - İEP) tərəfindən dövri olaraq açıqlanan "Global Terrorism Index" hesabatları Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı, digər beynəlxalq təşkilatlar və beynəlxalq akademik institutlar üçün istinad mənbəyi kimi çıxış edir. Hesabatlar eyni zamanda ölkələrə geniş iqtisadi infrastrukturda xarici investisiya yatırımları zamanı nəzərə alınan əsas mənbələrdən hesab olunur.

# Yağışlı hava şəraitində polisin xidməti necə təşkil edildi?

## Vətəndaş məmnunluğu xidmətin əsas nəticəsidir









Son günlər ölkə ərazisində müşahidə olunan intensiv yağıntılar, duman və çiskinli hava şəraiti yol hərəkəti iştirakçıları üçün müəyyən çətinliklər yaratdı. Bu şəraitdə təhlükəsizliyin təmin olunması yalnız fərdi tədbirlərlə deyil, həm də operativ və koordinasiyalı fəaliyyətlə mümkün olur.

### Gücləndirilmiş xidmət və operativ müdaxilə

Yağışlı günlərdə hava şəraiti ilə əlaqədar polis əməkdaşları gücləndirilmiş iş rejimində fəaliyyət göstərərək yollarda təhlükəsizliyin təmin olunması istiqamətində fasiləsiz xidmət apardılar. Küçə və prospektlərdə nəqliyyatın hərəkəti tənzimləndi, nasaz nəqliyyat vasitələri yollardan kənarlaşdırıldı.

Bəzi hallarda su basmış evlərdə köməksiz vəziyyətdə qalan vətəndaşlara yerində yardım göstərilməsi, onların təhlükəsiz ərazilərə aparılması polisin fəaliyyətinin əsas istiqamətlərindən biri oldu. Əlavə polis naryadlarının cəlb olunması ilə xidmət daha da gücləndirildi və riskli ərazilər xüsusi diqqətdə saxlanıldı. Statistik göstəricilər də görülən işin miqyasını açıq şəkildə göstərir. Belə ki, yağışlı günlərdə cəmi bir sutka ərzində daxil olan 763 müraciət operativ şəkildə aidiyyəti üzrə yönləndirildi. Onlardan 475-i yol polisi xidmətinə, 214-ü post-patrul və çevik qüvvələrə, 74-ü isə digər xidmət sahələrinə ötürülərək vətəndaşlara zəruri köməklik göstərildi. Bu rəqəmlər çətin hava şəraitində xidmətin nə qədər intensiv, çevik və eyni zamanda yüksək məsuliyyətlə təşkil olunduğunu aydın şəkildə nümayiş etdirir.

### Cəmiyyətin reaksiyası və ictimai həmrəylik

Baş verən hadisələr cəmiyyət tərəfindən də diqqətlə izlənildi. Sosial şəbəkələrdə və media platformalarında polis əməkdaşlarının yağışlı hava şəraitində göstərdiyi fədakar xidmət geniş şəkildə işıqlandırıldı, onların əməyinə vətəndaşlar tərəfindən yüksək qiymət verildi. İctimai rəylərdə, əsasən, hər kəs sığınacaq axtardığı bir vaxtda polis əməkdaşlarının yağışın, küləyin və soyuğun altında xidmət apararaq insanların təhlükəsizliyini təmin etməsi xüsusi vurğulandı.

Yağışlı və əlverişsiz hava şəraiti bir daha göstərdi ki, ictimai təhlükəsizlik kompleks yanaşma tələb edən vacib sahələrdən biridir. Eyni zamanda, hər bir vətəndaşın məsuliyyətli davranması, qaydalara əməl etməsi ümumi təhlükəsizliyin təmin olunmasında həlledici rol oynayır. Unutmayaq ki, ən çətin şəraitdə belə təhlükəsizlik qarşılıqlı anlayış və həmrəyliklə təmin olunur. Təhlükəsiz cəmiyyətin dayaqları məhz bu birlik üzərində qurulur.

*F.Məmmədova*

# Qanun artıq qüvvədədir

## Moped sürücülərinin də sürücülük vəsiqəsi olmalıdır

**Azərbaycanda mopedlərin idarə olunması ilə bağlı yeni qaydalar martın 26-dan etibarən qüvvəyə minib. Artıq moped idarə etmək üçün sürücülük vəsiqəsi tələb olunur və bu nəqliyyat vasitələri dövlət qeydiyyatına alınaraq uçota götürüləcək. Bununla bağlı "Yol hərəkəti haqqında" Qanuna 2025-ci il dekabrın 9-da edilən dəyişikliklər qüvvəyə minib.**



Qanuna əsasən, moped kiçik elektrik nəqliyyat vasitələri istisna olmaqla, elektrik mühərriki olan və ya iş həcmi 50 kub santimetrdən çox olmayan mühərriklə hərəkətə gətirilən, maksimum konstruksiya sürəti saatda 50 kilometrdən yüksək olmayan iki və ya üç təkərli nəqliyyat vasitəsi hesab olunur. Asma mühərrikli velosipedlər və oxşar xüsusiyyətli digər nəqliyyat vasitələri də bəzi maddələr istisna olmaqla mopedlərə bərabər tutulur.

Dəyişikliklərə əsasən, Azərbaycan ərazisində bütün mexaniki nəqliyyat vasitələri və onların qoşquları, eləcə də mopedlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalar əsasında dövlət qeydiyyatından keçirilərək uçota alınmalıdır.

Yeni qaydalara görə, ölkə ərazisində yollarda mopedi idarə etmək hüququ yalnız "A1" kateqoriyalı sürücülük vəsiqəsi əsasında mümkün olacaq.

Bundan əlavə, mopedlər yol nişanları və nişanlanmanın tələblərinə riayət etməklə, mümkün qədər yolun sağ kənar zolağı ilə hərəkət etməlidirlər. Həmçinin motosiklet və ya mopedlə onun qabaritlərindən 0,5 metrdən artıq kənara çıxan və ya idarəetməyə mane olan yükün daşınması qadağan edilir.

Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) moped sürücülərinə müraciət edərək bildirib ki, 2026-cı il martın 26-dan etibarən mopedi idarə etmək üçün "A1" kateqoriyalı sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və dövlət nömrə nişanı tələb olunur.

Qeyd edək ki, Prezident İlham Əliyevin qanunun tətbiqi ilə bağlı imzaladığı fərmanlarda dəyişikliklər də artıq qüvvədədir.

# Narkotacirlər tutulub

## Külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb



Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyatlar davam etdirilir. Paytaxt ərazisində keçirilən növbəti tədbirlər zamanı əvvəllər məhkum olunmuş Tural Abdullayev, Murad Tağıyev, Turan Quliyev, Ceyhun Məmmədov, İsa Heydərov və Dövlət Dövlətov saxlanılıblar.

Onlardan ümumilikdə 10 kiloqramdan artıq heroin, metamfetamin, marixuana və 1727 ədəd narkotik tərkibli həb aşkarlanıb. Saxlanılan şəxslərin narkotik vasitələri satmaq məqsədilə əldə etdikləri müəyyən olunub.

Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşlarının narkotik vasitə və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı keçirdikləri tədbirlər çərçivəsində İran vətəndaşı Mohammad Mosazadeh və Rəşad Əlifov Ağcabədi rayonunun Aşağı Avşar kəndi ərazisində saxlanılıblar. Onlardan 2 kiloqram narkotik vasitə heroin və psixotrop maddə metamfetamin aşkarlanıb.

Araşdırma zamanı M.Mosazadehin narkotikləri idarə etdiyi yük maşınının gizli saxlanc yerində qanunsuz olaraq ölkə ərazisinə gətirdiyi müəyyən edilib.

Faktlarla bağlı cinayət işləri başlanılıb, saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Araşdırmalar davam etdirilir.

# Keçmiş məhkum, yeni cinayət

## İstintaq şübhəli şəxsin daha bir əməlini üzə çıxarıb

Abşeron rayonu ərazisində soyğunçuluq hadisəsi qeydə alınıb. Belə ki, zərərçəkən idarə etdiyi avtomobildə müştəri kimi əyləşmiş naməlum şəxsin ona zor tətbiq edərək 600 manat dəyərində mobil telefonunu ələ keçirildiyi barədə polisə müraciət edib.

Abşeron Rayon Polis İdarəsi Qobu Polis Bölməsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər oğurluq və narkotiklə əlaqəli cinayətlərə görə məhkum olunmuş 26 yaşlı R.Dünyamalıyev müəyyən edilərək saxlanılıb.

Araşdırmalarla saxlanılan şəxsin rayon ərazisində daha bir nəfərin mobil telefonunu kəsici alətlə hədələyərək quldurluq yolu ilə ələ keçirdiyi məlum olub.

Faktlarla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Bir cinayətin izi ilə...

## Oğrunun nömrə “macərası” ifşa olunub

Paytaxtın Sabunçu rayonunda oğurluq hadisələri baş verib. Zərərçəkənlər polisə müraciət edərək onlara məxsus nəqliyyat vasitələrinin dövlət qeydiyyat nişanlarının naməlum şəraitdə oğurlandığını bildiriblər. Sabunçu RPİ-nin 13-cü Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 33 yaşlı Həsən Səfərli müəyyən edilərək saxlanılıb.

Araşdırmalarla müəyyən edilib ki, saxlanılan şəxs avtomobillərin dövlət qeydiyyat nişanlarını oğurladıqdan sonra öz mobil nömrəsini nəqliyyat vasitələrinin üzərinə yerləşdirib. Daha sonra avtomobil sahibləri həmin nömrə ilə əlaqə saxladıqda nişanları geri qaytarmaq üçün onlardan pul tələb edib. Onun bu üsulla paytaxtın digər ərazilərində də analoji cinayətlər törətdiyi məlum olub.

Sabunçu RPİ 13-cü Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri digər tədbir zamanı isə 2 avtomobilin şüşəsini qıraraq nəqliyyat vasitələrindən nağd pul oğurlamaqda, həmçinin rayon ərazisində yerləşən obyektdən əlvan metallar talamaqda şübhəli bilinən, əvvəllər dəfələrlə məhkum olunmuş 27 yaşlı Elçin Xəlilov da müəyyən edilərək saxlanılıb.

Hər iki şəxslə bağlı Polis Şöbəsində araşdırmalar davam etdirilir.

# Avtomobil qarətçisi istintaqda

## Bir neçə avtomobildən oğurluq edib

Nərimanov rayonunda bir nəfərə məxsus “Changan” markalı avtomobilin şüşəsinin sındırılaraq nəqliyyat vasitəsindən oğurluq edilməsi barədə polisə məlumat daxil olub. Nərimanov Rayon Polis İdarəsi 17-ci Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlər nəticəsində əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 27 yaşlı Qabil Kərimov müəyyən edilərək saxlanılıb.

Araşdırma zamanı onun paytaxt ərazisində daha 2 avtomobildən ümumilikdə 580 manat, qol saatı və boyunbağı oğurladığı da müəyyən olunub.

Qeyd edək ki, Q.Kərimovun etdiyi əməllər təhlükəsizlik kameraları vasitəsilə də qeydə alınıb

Faktlarla bağlı araşdırma aparılır.

# Qanunları bil, gələcəyini qoru

## Şəxsi azadlıq və sosial məsuliyyət arasında balans

**Müdriklərdən biri belə deyib: "Ağıllı insan düşündüyü hər şeyi söyləməz, lakin söylədiyi hər şeyi düşünər." Bu fikir xüsusilə gənclərə mühüm mesaj ötürür. Çünki düşünülməmiş söz və ya addım təkcə şəxsi münasibətlərə deyil, eyni zamanda hüquqi məsuliyyətə də səbəb ola bilər.**



Tarixin bütün dövrlərində gənclər cəmiyyətin aparıcı qüvvəsi olub. Onlar yeni ideyaların daşıyıcısı olmaqla yanaşı, bəzən riskli davranışlara da meyil göstərə bilirlər. Bu baxımdan hüquqi maarifləndirmə xüsusi əhəmiyyət kəsb edir. Çünki bir çox gənc bəzi hərəkətlərin sadəcə "zarafat" və ya "adi davranış" olduğunu düşünsə də, əslində bu hərəkətlər qanunla qadağan edilmiş və cinayət məsuliyyəti yaradan əməllər ola bilər. Qanunvericiliyə əsasən hər bir vətəndaş, o cümlədən gənclər də öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Müəyyən yaş həddindən sonra isə bu məsuliyyət daha da artır və artıq cinayət məsuliyyəti tətbiq olunur. Buna görə də gənclərin hansı davranışların cinayət hesab olunduğunu bilməsi onların gələcək həyatına birbaşa təsir göstərir.

### Hansı davranışlar cinayət hesab olunur?

Gənclər arasında ən çox rast gəlinən hüquq pozuntularına xuliqanlıq, oğurluq, zorakılıq və kibercinayətlər daxildir. Məsələn, ictimai yerdə dava-dalaş salmaq, başqasına fiziki və ya mənəvi zərər yetirmək qanunla cəzalandırılır. Eyni zamanda, başqasının əmlakını icazəsiz götürmək hətta "zarafat xatirinə" olsa belə oğurluq kimi qiymətləndirilir.

Son illərdə texnologiyanın inkişafı ilə əlaqədar olaraq sosial şəbəkələrdə təhqir, şantaj və şəxsi məlumatların yayılması halları artıb. Bir çox gənc bunun ciddi nəticələrini dərk etmir. Halbuki bu cür hərəkətlər də cinayət məsuliyyəti yaradır və hüquqi nəticələri olduqca ağır ola bilər. Digər tərəfdən, narkotik vasitələrin istifadəsi və yayılması da gənclər arasında təhlükəli tendensiyalardan biridir. Bu, yalnız sağlamlığa deyil, həm də milli genefonda ciddi zərbə vurur, hüquqi məsuliyyət müstəvisində də uzunmüddətli cəzalarla nəticələnə bilər.

### Düşünülməmiş hərəkətlər qanun qarşısında bəhanə deyil

Gənclər arasında tez-tez rast gəlinən hallardan biri də edilən hərəkətlərə sonradan "niyyətim pis deyildi" kimi yanaşmadır. Lakin qanun baxımından bu cür izahlar əsaslı hesab olunmur. Əgər edilən davranış digər şəxsin hüquqlarını pozursa və ya ictimai təhlükə yaradırsa, bu artıq hüquq pozuntusu sayılır. Məsələn, kimisə sosial şəbəkədə təhqir etmək və ya onun haqqında həqiqətə uyğun olmayan məlumat yaymaq bəzən əhəmiyyətsiz bir davranış kimi qiymətləndirilsə də, bu, həmin şəxsin şərəf və ləyaqətinə xələl gətirir və hüquqi məsuliyyət yaradır. Eyni zamanda, dostlar və ya tanışlar arasında edilən düşünülməmiş hərəkətlər ciddi xəsarətlə nəticələndikdə artıq cinayət əməli kimi qiymətləndirilə bilər. Bu səbəbdən gənclər hər bir addımın nəticəsini əvvəlcədən düşünməli, emosional və məsuliyyətsiz davranışlardan çəkinməlidirlər.

### Cinayət məsuliyyəti gəncin gələcəyinə necə təsir edir?

Cinayət məsuliyyəti yalnız müəyyən bir cəza ilə yekunlaşmır. Bu, gəncin gələcək həyatına uzunmüddətli təsir göstərir. Məsələn, məhkumluq faktı gələcəkdə iş tapmaqda, təhsil almaqda və xaricə səfərlərdə ciddi problemlər yarada bilər. Bundan əlavə, hüquq pozuntusu edən gənclər sosial mühitdə də müəyyən çətinliklərlə üzləşirlər. Cəmiyyətin onlara münasibəti dəyişir və bu da onların psixoloji vəziyyətinə mənfi təsir göstərə bilər. Bəzi hallarda isə gənc yanlış mühitə düşərək daha ağır cinayətlərə təhrik edilə bilər. Bu baxımdan, bir anlıq düşüncəsiz davranış illərlə davam edən problemlərə səbəb ola bilər.

### Gənclərin qorunmasının əsas yolu

Gənclərin cinayətlərdən uzaq durmasının ən effektiv yolu onların maarifləndirilməsidir. Ailə, məktəb və cəmiyyət bu prosesdə mühüm rol oynayır. Valideynlər övladlarına yalnız qadağalar qoymaqla kifayətlənməməli, həm də onların davranışlarının nəticələrini izah etməlidirlər. Məktəblərdə hüquqi biliklərin tədrisi, polis orqanlarının maarifləndirici tədbirləri və sosial layihələr gənclərin düzgün istiqamətdə formalaşmasına kömək edir. Eyni zamanda, gənclərin özləri də qanunlara maraq göstərməli, hüquq və vəzifələrini öyrənməyə çalışmalıdırlar.

Sonda qeyd edək ki, qanunları bilmək yalnız cəzadan yayınmaq üçün deyil, həm də düzgün və məsuliyyətli vətəndaş olmaq üçün vacibdir. Gənclər anlamalıdır ki, azadlıq məsuliyyətlə yanaşı gəlir və hər bir davranışın hüquqi nəticəsi var.

*Aytən Tahirova*

# İctimai yerlərdə təhlükəsizlik qaydaları

## Sadə davranışlar böyük risklərin qarşısını necə ala bilər?

İnsanların sıx toplaşdığı ictimai yerlərdə təhlükəsizlik qaydalarına riayət edilməsi hər bir vətəndaş üçün vacibdir. Parklar, ticarət mərkəzləri, ictimai nəqliyyat vasitələri və digər məkanlarda diqqətli davranmaq mümkün risklərin qarşısını almağa kömək edir.

### Şəxsi əşyalarınızı qoruyun

Belə yerlərdə şəxsi əşyaların qorunmasına xüsusi diqqət yetirilməlidir. İctimai məkanlarda ən çox rast gəlinən hallardan biri məhz cibgirlikdir. Bu səbəbdən pul kisəsi, mobil telefon və digər qiymətli əşyalar diqqətsiz saxlanılmamalı, çanta və digər şəxsi əşyalara daim nəzarət olunmalıdır. İzdihamlı yerlərdə naməlum şəxslərlə ehtiyatlı davranmaq tövsiyə olunur.

### Şübhəli hallara diqqət edin

İctimai yerlərdə şübhəli əşyalar və ya davranışlar müşahidə edildikdə dərhal aidiyyəti qurumlara məlumat verilməlidir. Naməlum və sahibsiz əşyalara toxunmaq və ya onları açmağa cəhd etmək təhlükəli ola bilər. Belə hallarda məsafə saxlanılmalı və polis əməkdaşları məlumatlandırılmalıdır.

### Azyaşlılara xüsusi nəzarət lazımdır

Belə məqamlarda uşaqların təhlükəsizliyi xüsusi diqqət tələb edir. Valideynlər və böyüklər uşaqları ictimai yerlərdə nəzarətsiz qoymamalı, onlara yad şəxslərlə ünsiyyət zamanı diqqətli olmağın vacibliyini izah etməlidirlər.

Bundan əlavə, ictimai nəqliyyatda və digər məkanlarda qarşılıqlı hörmət və nizam-intizam qaydalarına riayət etmək vacibdir. Qaydaların pozulması bəzən xoşagəlməz hadisələrə səbəb ola bilər. Səs-küylü davranışlar, yolda itirilmiş əşyalar və ya təlaş yaradan vəziyyətlər diqqətlə izlənilməli və zəruri tədbir görülməlidir. Həmçinin yol hərəkəti qaydalarına riayət etmək və ətraf mühitə hörmətlə yanaşmaq təhlükəsizliyin əsas tərkib hissələrindəndir.

Nəzərə almaq lazımdır ki, təhlükəsizlik yalnız polis orqanlarının deyil, hər bir vətəndaşın məsuliyyətidir. Diqqətli və məsuliyyətli davranış ictimai yerlərdə təhlükəsizlik mühitinin formalaşmasına kömək edir və xoşagəlməz halların qarşısını vaxtında alır.

# Asayişin təminatında tarixi təcrübə

## Polisin yaranması və inkişaf mərhələləri







Bəşəriyyət yarandığı gündən ictimai asayişin və təhlükəsizliyin qorunması əsas məsələlərdən biri olub. İlk dövrlərdə bu funksiyalar tayfa başçıları və icma ağsaqqalları tərəfindən həyata keçirilsə də, dövlətlərin formalaşması ilə bu sahədə daha sistemli idarəetməyə ehtiyac yarandı.

Tarixi mənbələrə əsasən ilk təşkilatlanmış nəzarət və asayiş mexanizmlərinə Qədim Misir və Mesopotamiya sivilizasiyalarında rast gəlinir. Həmin dövrlərdə hökmdarların əmri ilə fəaliyyət göstərən nəzarətçilər ictimai qaydanın qorunması, vergi yığımı və qanunların icrasına nəzarət funksiyalarını yerinə yetirirdilər.

### Polis dövlət nəzarətinin ilkin forması idi

Qədim Çin dövlətində də ictimai asayişin qorunması xüsusi əhəmiyyət kəsb edən məsələlərdən hesab edilib. Yerli idarəetmə orqanları əhalinin davranışına nəzarət edir, hüquq pozuntularını araşdırır və müvafiq tədbirlər görürdülər. Bu sistemdə kollektiv məsuliyyət prinsipi tətbiq olunmaqla qanunların icrasına ciddi nəzarət təmin edilirdi.

### İslam dünyasında asayişə xüsusi diqqət yetirilib

İslam dünyasında, xüsusilə Abbasilər dövründə fəaliyyət göstərən şəhər nəzarətçiləri ictimai asayişin qorunmasında mühüm rol oynamışdır. Onlar bazarlarda, küçələrdə və digər ictimai məkanlarda qayda-qanunun təmin olunmasına, ticarətdə şəffaflığın qorunmasına və ictimai davranış normalarına riayət olunmasına nəzarət edirdilər. Bu sistem də müasir polis və nəzarət orqanlarının ilkin formalarından biri hesab olunur.

### Zaman təkmilləşmə tələb edirdi

Zaman keçdikcə cəmiyyətin inkişafı ilə paralel olaraq cinayətkarlığın xarakteri də dəyişməyə başladı. Reallıq isə daha peşəkar və mərkəzləşdirilmiş polis qurumlarının yaradılmasını tələb edirdi. Bu istiqamətdə ilk sistemli addımlar Avropa ölkələrində, xüsusilə Fransa və İngiltərədə atılmışdı. Fransada dövlət nəzarət sisteminin gücləndirilməsi ilə polis strukturları daha təşkilatlanmış forma aldı. Daha sonra London şəhərində yaradılan "Metropolitan Police Service" isə müasir polis anlayışının əsasını qoydu. Bu qurum ilk dəfə olaraq vahid idarəetmə, peşəkar kadrlar və ictimaiyyətə xidmət prinsiplərini bir araya gətirdi.

### Polis keşməkeşli inkişaf yolu keçdi

Polis göründüyü kimi tarix boyu sadə nəzarət funksiyasından çıxaraq daha geniş və mürəkkəb struktura çevrildi. Əvvəllər əsas məqsəd yalnız qayda-qanunun qorunması idisə, bu gün polis orqanları cinayətlərin qarşısının alınması, ictimai təhlükəsizliyin təmin edilməsi və vətəndaş hüquqlarının müdafiəsi kimi çoxşaxəli fəaliyyət həyata keçirir. Müasir dövrdə isə texnologiyanın inkişafı polisin fəaliyyətində yeni imkanlar yaradır. Elektron məlumat bazaları, müşahidə sistemləri və müasir kriminalistik metodlar polis orqanlarının işini daha dəqiq və operativ edir. Bununla yanaşı, polis-vətəndaş münasibətlərinin inkişafı da əsas prioritetlərdən birinə çevrilib.

Beləliklə əminliklə söyləmək olar ki, güclü və ədalətli hüquq-mühafizə sistemi olmadan cəmiyyətin sabit inkişafı mümkün deyil. Bu gün polis orqanları yalnız qanunların icrasını təmin edən qurum deyil, həm də cəmiyyətin təhlükəsizliyinin və rifahının əsas təminatçıları sırasındadır.

*Aytən Tahirova*

# Hüququn gülən üzü

## Qəribə qanunlar və onların arxasında dayanan məntiq

Dünyada elə qanunlar mövcuddur ki, onları eşidəndə insan həm təəccüblənir, həm də gülümsəyir. Bu cür qaydalar ilk baxışdan qəribə görünsə də, əslində onların yaranmasının arxasında müəyyən səbəblər dayanır. Bu cür normalar "hüququn gülən üzü" kimi qəbul edilir və cəmiyyətin müxtəlif dövrlərdə üzləşdiyi problemlərin qeyri-adi əksi kimi qiymətləndirilir.

Məsələn, Sinqapurda ictimai yerlərdə saqqız satışı və istifadəsi ciddi şəkildə məhdudlaşdırılıb. Bu qərar şəhərin təmizliyini qorumaq məqsədilə qəbul edilib. İtaliyanın Venesiya şəhərində isə turistlərin göyərçinləri yemləməsi qadağandır. Səbəb isə tarixi abidələrin quşlar tərəfindən zədələnməsinin qarşısını almaqdır.

Maraqlı nümunələrdən biri də Tailandla bağlıdır. Bu ölkənin pul vahidinin üzərinə basmaq ciddi qanun pozuntusu hesab olunur. Çünki milli valyutada ölkə kralının təsviri yer alır və bu, ölkənin birinci şəxsinə ciddi hörmətsizlik kimi qiymətləndirilir. Fransada isə bəzi dəmiryol stansiyalarında platformada sağollaşan zaman öpüşmək qadağan edilib. Bu qayda vaxtilə qatarların gecikməsinin qarşısını almaq məqsədilə tətbiq olunub. Yaponiyada ictimai nəqliyyatda yüksək səslə danışmaq etik davranış qaydalarına zidd hesab edilir və bəzi hallarda inzibati qaydalarla tənzimlənir. Avstraliyanın bəzi bölgələrində isə təhlükəsizlik qaydalarına görə elektrik lampasını belə yalnız mütəxəssisin dəyişməsi tələb olunur. Bu kimi qanunlar bəzən insanlara gülməli görünsə də, onların arxasında təhlükəsizlik məqsədləri dayanır.

Göründüyü kimi, hüquq yalnız ciddi və sərt qaydalar toplusu deyil. O, həm də cəmiyyətin həyat tərzini, mədəniyyətini və qarşılaşdığı problemləri əks etdirən canlı bir sistemdir. Bəzən bir qanun insanı güldürə bilər, lakin onun yaranma səbəbi düşündürücü və məntiqli olur.

*A.Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik